# RƏNGARƏNG PROQRAMLARLA fəaliyyətimizi genişləndiririk

**Öz rəngarəng, yaddaqalan maraqlı tamaşaları, səhnəcikləri, ədəbi-bədii kompozisiyaları ilə geniş tamaşaçı rəğbəti qazanmış Şabran Rayon Mədəniyyət Mərkəzi öz fəaliyyətini ildən-ilə genişləndirir. Ötən il mərkəzin mədəniyyət ocaqlarında bir sıra mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Mərkəzin direktoru, uzun illər mədəniyyət sahəsində çalışan Cabir Əmrahov görülən işlərdən danışaraq deyir ki, Şabran Mədəniyyət Mərkəzi "Xalq teatrı", "Çıraqqala" zurnaçılar, "Xınayaxdı" folklor ansamblları, "Aylı gecə" xalq çalğı alətləri ansamblı, Ə.Xaqani adına "Poeziya evi", iki şəhər klubu, üç kənd mədəniyyət evi, yeddi kənd klubu, iki kənd yaradıcılıq klubu, iki kənd sənətkarlıq klubunu özündə birləşdirir.**



"Nizami ili" çərçivəsində mədəniyyət mərkəzində "Xalq teatrı" tərəfindən "Nizami ömrü" adlı ədəbi-bədii kompozisiya səhnəyə qoyulmuşdur.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə "Kəndlərdə mədəniyyət günləri" layihəsi çərçivəsində Şabran rayonu Pirəbədil kəndində "Zəfər bayramın mübarək, Azərbaycan!" adlı tədbir keçirilmiş Vətən müharibəsinə həsr edilmiş sərgi, döyüş geyim nümunələri nümayiş olunmuşdur.



Ötən il ən yaddaqalan tədbirlərdən biri yazıçı Aybəniz Əliyarın "Xarıbülbül" pyesinin motivləri əsasında "Xalq teatrı"nın hazırladığı eyniadlı tamaşanın nümayişi olmuşdur. Vətən müharibəsində qazanılan tarixi Zəfərin ildönümünə həsr olunmuş bu tamaşa əvvəlcə Şabran, daha sonra isə Xaçmaz və Siyəzən rayonlarının mədəniyyət evlərinin səhnəsində nümayiş olunmuşdur.

Rayon Mədəniyyət Mərkəzi və filialları vətənpərvərlik mövzusunda kütləvi tədbirlərə daha çox yer verir. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası ilə əlaqədar rayon Gənclər və İdman İdarəsi ilə birlikdə gənclərə vətənpərvərlik hisslərinin aşılanması məqsədilə "Vətən mənə oğul desə...", "Vətən sizə güvənir", "Bu torpağın hər qarışı Vətəndir" adlı dəyirmi masalar, mədəni-kütləvi tədbirlər keçirilmişdir.

44 günlük Vətən müharibəsində Şabran rayon sakinləri də igidlik və qəhrəmanlıq nümunələri göstərmişlər. Mərkəz tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər həyata keçirilir. "Qəhrəman oğullarımız" adlı tədbirdə Birinci və İkinci Qarabağ müharibəsi iştirakçıları və qazilərin döyüş xatirələri dinlənilmiş, çıxışları tədbirə xüsusi rəng qatmışdır. Mərkəzin kollektivi bir qayda olaraq şəhidlərin ildönümü, xatirə günləri və anım tədbirlərində, bulaq, barelyef abidələrinin açılışında iştirak edirlər. Şəhid ailələrinə baş çəkir, vaxtaşırı onları ziyarət edirlər.

Qarşıda görüləsi işlərimiz hələ çoxdur. Mərkəz "Şuşa ili" çərçivəsində hazırlanan "Tədbirlər Planı"nın icrasına başlamışdır. Planda digər tədbirlər də yer almışdır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**